(əvvəli ötən sayımızda)

**- Məmməd Arif, Cəfər Xəndan...**

- Yox, onlar da deyildi. Tənqidçiydi. İndi adını deyəcəm. Cəlal Məmmədov. Dediklərinin heç biri "Azərbaycan" jurnalının baş redaktoru olmayıb. Nə isə, indi də sağ olan, o zamanın bir cavan şairini çağırdı, ona bu təklif edildi, o da şeirlərini yazıb gətirdi və jurnalda da çap elədilər.

**- Demək o "gənc və istedadlı şair" yazdı?**

- Hə, yazdı. Söhbət ondan gedir ki, o, şair dostum olmuşdu, dostum olub hər halda, elə sıx əlaqə saxlamasam da. Səmimiyyətdən bəhs etdin, al, bu da sənə səmimiyyət.

**- Bunları başa düşdük. Hər halda sovet dövrü deyilirdisə, bu dövrün partiya və hökumət tərəfindən təşkil etdiyi mövzular vardı. Üzüm, pambıq, neft, oktyabr kimi mövzular aşıb - daşırdı.**

- Bunlar mənim mövzularım deyil, Xanəmir.

**- Ustad, bu söhbəti sizlə edirəm. Bəlkə də başqasıyla bu mövzuları söhbətə çevirməzdim.**

- Bəli.

**- Qəribəsi olan odur ki, sizə təklif olunan, sizin rədd elədiyiniz o təklifi sizin bir yaşıdınız sevə - sevə qəbul eləmiş, üstəlik də, bəlkə bu təklifdən dolayı nəzir-niyaz da vermiş ola bilir.**

- Mənim ilk çap olunmağım deməli, 1976-cı ildə "Gənc Qələmlər" kitabında şair İlyas Tapdığın verdiyi "Xatirələr" şeirim, sonrakı ədəbi aləmə təqdimatım isə Rəsul Rzanın mənim haqımda yazdığı məqalə ilə bir yerdə "İSTEDAD+ DÖZÜM+ZƏHMƏT" yazısıyla " Ulduz" jurnalının 1978-ci ildə, 4-cü sayında çap olunub. Birinci şeir də "İstedadı yetirənlərin nəğməsi" şeiridir. İstedadı kim yetirir? İstedadı xalq yetirir. Demək, bu şeir xalqın nəğməsidir. Ustalıq da odur. O şeir balaca bir şeir idi:

*Biz alovun qüdrətiyik*
*Bir ovuc küldə gizlənmişik.*
*Biz sükunətik*
*İçimizdə bir dəlisov qışqırıq var!*
*Ancaq bilirik,*
*Ölərik*
*Qışqırsaq...*
*Biz mayayıq, -*
*Qıcqırıb qıcqırıb dahilər yaradırıq.*
*Biz daima yığılıb açılan bir yayıq*
*Hər açıldıqca yaradıcılıq səmasına*
*Dahilər*
*tullayırıq.*
*Biz sirrik,*
*Biz kəşfik,*
*Bacarıqlı əllərdə*
*Düşüncəli beyinlərdə*
*Açılmağa tələsirik!*

*(Yanvar.1968.)*

# Çingiz Əlioğlu: "Azərbaycanda gənclər arasında ciddi imzası olan qadın yazıçı yoxdur"

## "Ömrünün çoxunu yaşamış bir adam, nə verəcək bu millətə?"

## "Vaxt olub bir həftəyə 1 kitab yazmışam"

**- Bir az da manifest təsiri bağışladı. Yaradıcılıq yolunuzun konsepsiyasıdır sanki.**

- Bütün yaradıcılıq yolumun konsepsiyasıdır bu balaca şeir. Bu şeir 70-80 min tirajla çıxan "Ulduz" jurnalında çap olunub.

**- Beləcə böyük ədəbiyyata yolunuz başladı. Sözsüz ki, Rəsul Rzanın da yazdığı o ön söz bəlkə də sizi çox şeylərdən qorudu, mühafizə elədi. Bir məsələni sizinlə danışmaq istədim nədənsə. Olduqca məşhur bir şair tanıyırdım. Sovetin şıdırğı vaxtında Leninə şeir həsr eləmişdi. Sovet dövrü dağıldıqdan sonra şeirdə Leninin adını çıxarıb bir başqa ad yazaraq çap eləmişdi şeiri.**

- Sən onun adını deməsən də, mən təxminən bilirəm kimdən danışırsan.

**- Yəni demək istəyirəm ki, ədəbiyyatımıza bu şəkildə zərbə vurmaq həmişə olubdur, indi də var. Ən qəribəsi budur ki, eyni adamlar o dövrdə də, bu dövrdə də hələ də qalır, o xislətlərindən əl çəkmirlər. Ədəbiyyata bu cür yanaşmaq nə dərəcədə doğrudur?**

- Bilirsənmi, ədəbiyyat belə kiçik ölçülərlə ölçülən bir nəhəng deyil. Ədəbiyyat son dərəcə zəngin, dolğun, son dərəcə öz içindən böyüyən bir anlayışdı, bir siqlətdi, bir yaradıcılıq stezi-yasıdır. Ona görə də, hansısa öz maraqları səviyyəsindən baxan adamlar yox kimidirlər. Bu günləri o adamlar üzdə olsalar belə, əsas deyillər. Ədəbiyyatda əsas olan şey başqadır.

**- Sizi demək olar ki, oxumuşam. Həm şeirlərinizlə, həm də ədəbiyyat üzərinə yazdığınız yazılarla, kitablarla, fikirlərinizlə tanışam. Bir də sizinlə bağlı yazılan yazılarla tanışam. Sizdə izimlərlə əlaqəli bir problem olubmu? Yaxud izmlərdən bir vasitə kimi istifadə etmisinizmi? Yaxud da, hansısa bir cərəyanı yaradıcılığınızda əsas olaraq götürmüsünüzmü heç?**

- Mən 25 yaşında olan Çingiz deyiləm. Niyə 25 yaşında? Çünki bu yaşda mənim ilk kitabım çap olunub. Bu gün isə mən çox fərqliyəm. Amma eyni zamanda o əsas şeylər ki, var, onlar məndə qalır. Poeziya həddindən artıq böyük bir sirdir. O vaxt ki, bu sirrin kəlefi keçir sənin əlinə, o vaxt çox təəssüflənirsən. Mənim bir həftədə bir kitab yazdığım olub. İndinin özündə belə mən şeir dəftərimi açanda görürəm ki, mən o Çingizdən cismani cəhətdən uzaq olsam da, ruhən belə sən deyən uzaq deyiləm. Bilirsən, mən dil cəhətdən də olduqca diqqətliyəm.

**- Çox həssassınız, zəngin söz bazanız var. Hər şey sayrışır. Hər şey diridir. Poeziyada bu qədər söz yaddaşı, olduqca maraqlıdır. Bu bəlkə də genetik yaddaşla bağlıdır. Bu kitabla, mütaliə ilə oluşan bir məsələ deyil. Hər şairdə bu qədər dil zənginliyi tapmaq çətindir.**

- Tamailə doğrudur. Məsələ burasındadır ki, mənim kitablarımın təxminən 2 faizi bu evdədir. Məndə 1000-ə qədər rəssam işi var.

**- Zəngin kolleksiyanızın olduğunu bilirəm...**

- Bunların içində cəmi 2 işi pulla almışam. Hansı ki, o rəssam böyük rəssam idi. İndi rəhmətə gedib. Mən o pulu ona görə ona verirdim ki, heç olmasa bu dəzgahın qabağında dayanıb. İndi o işlər mənim o biri evimdədir. Nizami kinoteatrı ilə üzbəüz olan evimdədir.

**- Demək istəyirsiniz ki, o kitablarınız da ordadır.**

- Mən bura 4 ildir köçmüşəm və mən 4 ildir ki, ağrıyıram. Mən indi evin üst qatına qalxıb ora boşdu, kitab qoya bilmirəm hələ. Ancaq qoyacam. Demək istəyirəm ki, mənim həddən artıq böyük oxu yatırım var. Bütün bunlarla bərabər, Azərbaycan dilinin qaynadığı bir örnəkdən, bir bulağın gözündən su içmişəm. Bu dil Qarabağ dilidir.

**- Maraqlı olan odur ki, dilinizdəki sözlər modern şeir örnəkləriylə sizin poetik dilinizdə olduqca gözəl görsənir.**

- Təşəkkür edirəm.

**- Bir də Çingiz müəllim, sizə elə gəlmirmi ki, biz sovet dövründən aralansaq da, sanki çağdaş şeirimizə, ədəbiyyatımıza qəribə bir sosial dil hakimdir. Dil söhbətini ona görə saldım. Ola bilsin gözəl imzalar var, olduqca intellektual şeirlər yazılır, yüksək səviyyəli ədəbi - bədii - poetik zövqlərimiz əksər yeni gənc nəslin yaradıcılığında özünü göstərsin. Ancaq o dediyim sosiallıq da bu yazıların dilindən əl çəkmir. Bu, mənim fikrimdir. Bunun kökündə nə durur, Azərbaycanda gedən ictimai-siyasi proseslərmi, dünyada gedən proseslərmi?**



- Əlbəttə, Azərbaycan dilinin çağdaş mənzərəsi o qədər də ürək açan deyil. Xüsusən də, poeziyada. Cavan şairlərin çoxu xalqa "dırnaq arası" yaxın olan dildə yazırlar. Amma xalqın dili, əsl dili, doğma dili tamam başqadır. Azərbaycan dilində yazılan şeirin əsil simasını görmək üçün təəssüf ki, indi çox az şairlər var ki, daha çox dünyasını dəyişmiş şairlərin yaradıcılığına müraciət etməli olursan. Mən indi yaddaşımla bağlı müəyyən narahatçılıqlar keçirirəm. Mən Şaiq Vəlinin, Akif Səmədin adını çəkmək istərdim.

**- Bəs Murad Köhnəqala?**

- Murad sevdiyim şairlərdəndir. Ona da şeir həsr eləmişəm. Yəni bunların şeirləri təmiz Azərbaycan dilindədir.

**- Şaiq Vəli, bilirsiniz də, rəhmətə gedib.**

- Mən onu yüksək qiymətləndirirəm.

**- Eldar Baxışın şeirləri necəydi?**

- Çox yaxşı idi, olduqca yaxşıydı. Amma ondan da yaxşı olanı vardı.

**- İmperiyanın tərkibindən qopan, öz müstəqilliyini elan edən xalq necə azad oldusa, bu xalqın ədəbiyyatı, sizcə, müstəqil ola bildimi? Ən azından zehniyyət, təfəkkür, mövzu baxımından. Belə götürəndə bizim ədəbiyyat özgür, müstəqil ədəbiyyatdırmı?**

- Çox məsuliyyətli sualdır. Bu sualın cavabını vermək də hələm - hələm hər oğulun işi deyil. Bu gün təəssüf ki, o dediyimiz azadlıq, müstəqillik ədəbiyyatımızda özünü yetərli qədər göstərə bilmir. Azərbaycan ədəbiyyatının özünəməxsus mövzuları, hətta personajları belə (tutaq ki Cahandar Ağa obrazını, yaxud İ.Əfəndiyevin əsərlərində olan monomental obrazları səsinə qoşa biləcək ) yeni obrazlar yetişməyib ədəbiyyatda. Müasir ədəbiyyat hələ özünü axtarmaqla məşğuldur. Müasir ədəbiyyat deyəndə, mənim üçün, Anar da, Elçin də var. Bir neçə yazar var, onları qırağa qoyuram. Bunlar artıq özünü tapmış, özünü təsdiq eləmiş yazarlardır. Ancaq cavan yazarların içərisində özünü tapmış, təsdiq eləmiş elə bir imzaya rast gəlmirəm.

**- Yəni özünü təsdiqləmiş imzalarımız yoxdur, deyirsiniz?**

- Bəli. Mən hələ görmürəm. Ümumiyyətlə, qadınlar poeziyada..... (burda çox fikirləşdiyi, dayandığı üçün, müdaxilə edirəm: - X.T.)

**- Deyirsiniz ki, poeziyada qadınlar çoxalmağa başlayıb. Danışın, burda pis bir şey demirsiniz ki..**

- Mən çalışıram bir qədər söhbəti müsbət atmosferdə eləyək.

**- Məncə, siz nə danışsanız, ədəbiyyatın xeyirinədir.**

- Amma ədəbiyyatda bu gün qadınlar 35-40 yaşdan üzü bəri hələ yetişmiş bir sima görə bilmədim. Bu qadınlarda ayrı cürə, kişilərdə başqa cürə baş verir. Bu faktdır.

**- Ola bilərmi ki, bu, dövrlə bağlı bir gerçəklikdir. Əvvəlki dövrdə bilirdin ki, bir sistem var. O sistemin adı vardı. Bugünkü dövrün isə konkret bir adı yoxdur. Adı olmayan bir sistem də mümkün deyil. Adı olmayan bir prosesin içərisində sənət, incəsənət, ədəbiyyat necə özünü tapar, tapa bilər?**

- Əgər adı olmayan bir prosesin içərisində biz bunu axtarsaq, rast gəldiyimiz şeylərin ancaq adı olmayan nənələr olacaq. Bax orda gördün kitabın üzündəki şəkli Finlandiyanın rəssamı çəkib. Azərbaycan qadınının geyimidir. Bax dediyimiz o yaş çərçivəsində bu səviyyədə oturuşmuş işlər tapmaq çətindir. Ümidverici imzalar var. Təsdiq olunmaq isə ayrı şeydir. Adlar da çəkə bilərəm, lap nə olsun ki?

**- Bəli, indi bir moda minib adlar çəkmək.**

- Bəli.

**- Sizə yazıblar da bir zamanlar, ön söz, uğurlu yol. Siz hansısa gənc yazara ön söz, uğurlu yol yazmısınızmı?**

- Yazmışam. 3-4 nəfər olar.

**- Bunu bilmirdim.**

- Təbii. Gənə yapışanda əl çəkmir ki.

**Yaradıcılıqla bağlı qorxunuz yoxdur ki?**

- Qəti şəkildə. Bu yaradıcılıq, şeir məsələsi elə bir məsələdir ki, əgər qorxacaqsansa, bu dəryaya girməli deyilsən.

**Söhbətləşdi:**
**Xanəmir Telmanoğlu**

### *Çingiz Əlioğludan bir şeir*

**Kimlər ki, sənin**
**Al qanından içiblər.**
**Daha səndə işləri yox,**
**Təqsirindən keçiblər**

**Kimlərə ki, sən**
**Qan uddurmusan**
**Rahat yata bilərsən,-**
**Günahından keçiblər.**

**Kimlər ki, səni**
**Min kişidən seçiblər,**
**əmin ola bilərsən,-**
**kəfənini biçiblər....**

**Avqust, 2008.**

Ədalət.- 2020.- 9 yanvar. S. 6.